PLITONIT Plitonit Deutsche Qualität

PEŞƏKAR OLMAQ ASANDIR

# PLİTONİT Qazlı beton üçün Astar PROFI –çox-hopdurucu özüllərin işlənməsi üçün dərin nüfuz edən astar-konsentrat




Astar daxili və xarici işlərin yerinə yetirilməsi zamanı bitirmə həll qarışıqları ilə hamarlanmadan, plitələrlə döşənmədən və boyalarla boyalanmadan əvvəl çox hopdurucu mineral özüllərin: avtoklav qazlı beton, köpük beton, şlak beton, keramzit beton, silikat bloklar və kərpic, keramika kərpic və blokların işlənməsi üçün nəzərdə tutulmuşdur. Səthi tozsuzlaşdırır, özülün sonrakı örtüklərlə yapışmasını artırır.

**Qablaşdırma - 3 l, 10 l plastik kanistr.**

- Konsentrat seyreltmə 1:2
- Həlledici qarışıqdan məsaməli özülə su axını azaldır
- Tozsuzlaşdırır, sonrakı örtüklərlə yapışmanı artırır
- Astarın tərkibindəki piqment aparılan işin yoxlanılmasını asanlaşdırır
- Daxili və xarici işlər üçün astar
- Saxlama zamanı dondurulması mümkündür

## Materialın sərfiyyatı

1 $m^2$ üçün 80-85 ml seyreltilməmiş praymer

## İşlərin həyata keçirilməsi şərtləri

İşlərin yerinə yetirilmə zamanı havanın, özülün və istifadəyə hazır praymerin temperaturu ən azı + 5°C olmalıdır. Xarici işləri yerinə yetirərkən işlənmiş səth quruyana qədər atmosfer yağıntısından qorunmalıdır.

## Əsas sahənin hazırlanması

Astarlanmadan əvvəl səth tozdan, kirdən, yağdan təmizlənməlidir. Örtüyün köhnə və zəif tutulan sahələri diqqətlə aradan qaldırılmalıdır.

## Tətbiq üsulu

Konsentratın seyreltilməsi üçün içməli su təchizatından su istifadə edilir. Seyreltmədən və istifadə etməzdən əvvəl praymer yaxşıca qarışdırılmalıdır. 1:2-dən çox olmayan nisbətdə su ilə seyreltilməlidir. Şaquli səthlər valiklə və ya püskürtmə vasitəsi ilə astarlanır. Astar 5-10 dəqiqə ərzində özülə hopub və quruyubsa, yenidən astarlama işi yerinə yetirilməlidir. Astarın birinci təbəqəsi tamamilə quruduqdan sonra təkrar astarlama və bitirmə işləri yerinə yetirilir.

## Diqqət

İşlərin yerinə yetirilmə prosesində astarın vaxtaşırı qarışdırılması tövsiyə olunur. Alət və qablar istifadədən dərhal sonra su ilə yuyulmalıdır.

Göstərilən xüsusiyyətlər ətraf mühitin temperaturu 20+2°C, havanın nisbi rütubəti 60+10% olduqda etibarlıdır. İşlər yerinə yetirərkən, ümumi tikinti işlərinin aparılması və tikintidə təhlükəsizlik tədbirləri ilə bağlı təlimatlara əməl etməlisiniz.

**Ehtiyat tədbirləri**

İşləri yerinə yetirərkən əlcəklərdən istifadə edin. Praymerin dəri və gözlərə girməsindən qaçının. Gözlərə dəydikdə, onları dərhal çox miqdarda su ilə yuyun, həkimə müraciət edin.

**Daşınma və saxlama şərtləri**

-50°C-dən + 40°C-ə qədər temperaturda sıx qapalı qablarda saxlayın, birbaşa günəş işığından qoruyun. -50°C-də 5-ə qədər dondurulma dövrünə icazə verilir, əridildikdən sonra xüsusiyyətlərini qoruyur. Dondurulduqdan sonra, məcburi qızdırılmadan tamamilə əriyənə qədər otaq temperaturunda saxlanılmalıdır. İstehsalçının açılmamış qabında saxlama müddəti istehsal tarixindən 24 aydır. İstehsal tarixi üçün qablaşdırmaya baxın.

**Tərkibi**

Polimerin sulu dispersiyası, dəyişdirici əlavələr.

**İstehsalçı Zəmanəti**

İstehsalçı tərəfindən qoyduğu daşınma və saxlama şərtlərinə, habelə bu təlimatın şərtlərinə riayət etdiyi halda məhsulun texniki şərtlərə uyğun olmasına zəmanət verir. İstehsalçı materialla işləmə texnologiyasına riayət edilməməsinə, habelə onun hazırki təlimatlarda nəzərdə tutulmayan məqsədlər və şərtlərə uyğun istifadəsinə görə məsuliyyət daşımır.

**3 l kanistr üçün logistik məlumat**

Fərdi ştrix kodu 4607013047815

Qrup ştrix-kod 14607013047812

Bir qutudaki kanistrların sayı - 6 ədəd
Bir paletdəki kanistrların sayı - 144 ədəd.

**10 l kanistr üçün logistik məlumat**

Fərdi ştrix-kod 4607013047808
Bir paletdəki kanistrların sayı - 40 ədəd